**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**CEYHUN YAŞAR oğlu SƏMƏDOV**

# AZƏRBAYCANIN XALQ RƏSSAMI KAMİL NƏCƏFZADƏNİN YARADICILIĞI

**Ixtisas: 6215.01 – təsviri sənət**

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**BAKI – 2016**

İş Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun “Təsviri, dekorativ–tətbiqi sənətlər və heraldika” şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Kübra Muxtar qızı Əliyeva**
sənətşünaslıq üzrə elmlər doktoru, əməkdar incəsənət xadimi, professor

**Rəsmi opponentlər:** **Tofiq Məhəmməd oğlu Ağababayev**
xalq rəssamı, professor

**Fəridə Altay qızı MirBağırzadə**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

Müdafiə **30 noyabr 2016-cı il saat 14:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat **“31” oktyabr 2016-cı ildə** göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru: X.Z.Əsgərova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Öz yaradıcılıqlarında müxtəlif sənət sahələrinin hər birinə özünəməxsus yaradıcılıq töhfələri verən rəssamlarımız az olmayıb. İncəsənətimizin XX əsr mənzərəsində önəmli yer tutan xalq rəssamı, iki dəfə Dövlət mükafatı laureatı Kamil Nəcəfzadə (1929-1955) belə yaradıcılardan sayılır.

Onun uzun illər ərzində kino-teatr rəssamlığı, rəngkarlıq və qrafika sahəsində uğurlu fəaliyyətinə baxmayaraq, yaradıcılığının sənətşünaslarımız tərəfindən elmi araşdırma obyektinə çevrilməməsi nə qədər təəssüfləndirici olsa da, faktdır.

Ötən əsrin əllinci illərindən başlayaraq K.Nəcəfzadənin əsas yaradıcılıq sahəsi kinematoqrafiya olmuşdur. O, yarım əsrə yaxın bir müddətdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rəssam kimi çalışmış və 40-a yaxın kinofilmin yaranmasında iştirak etmişdir. Onların arasında Azərbaycan kinosuna böyük şöhrət qazandırmış çoxsaylı filmlər var. Həmin filmlərin uğur və ictimaiyyət arasında duyulası rəğbət qazanmasında rəssamın kino rəssamlığımızı yeni bədii-estetik keyfiyyətlərlə zənginləşdirdiyi birmənalı olan tərtibatlarının əhəmiyyətli rolu olmuşdur.

Kino rəssamlığımızda baş verən bədii-yaradıcılıq proseslərinin vaxtaşırı dövrü mətbuatda və xüsusi incəsənət toplularında yer almaması və elmi təhlilinin həyata keçirilməməsi bir çox yaradıcılarımız kimi, onun da axtarışlarının ictimaiyyətə çatdırılmamasına səbəb olmuşdur. Başqa sözlə desək, bu günədək Azərbaycan incəsənətinin tanınmış simalarından biri olmuş K.Nəcəfzadənin yaradıcılığı elmi şəkildə işıqlandırılmamışdır. Onun barəsində müasir sənətşünaslıq elminin tələblərinə cavab verən, rəssamın yaradıcılığının ətraflı təhlilini təqdim edən tədqiqat əsərinin olmaması da bunun göstəricisidir. Bu da bu yöndə müəyyən addımların atılmasını şərtləndirmişdir.

Deyilənlərə rəğmən demək olar ki, Azərbaycanın qocaman rəssamlarından olan K.Nəcəfzadənin kino-teatr rəssamlığı və rəngkarlıq-qrafika fəaliyyətini əhatə edən monoqrafik tədqiqatın yazılması aktuallıq kəsb edir.

**Mövzunun araşdırılma səviyyəsi.** K.Nəcəfzadənin yaradıcılığı nə qədər maraqlı tutuma malik olsa da, onun sənətşünaslıq elmində bu vaxta qədər geniş tədqiqat obyektinə çevrilməməsi faktdır. Rəssamın yaradıcılığı qismən də olsa müxtəlif nəşrlərdə və dövri mətbuatda işıqlandırılmışdır.

İndiyə qədər nəşr olunanlar arasında ilk növbədə 1981-ci ildə işıq üzü görmüş “Kamil Nəcəfzadə (rəngkarlıq,kino, teatr)” kitabının adını qeyd etmək olar. Tərtibçisi sənətşünas P.Hacıyev olan bu kitabda onun kiçik həcmli məqaləsi ilə yanaşı, xalq rəssamı R.Mehdiyevin K.Nəcəfzadə yaradıcılığı barəsində fikirləri yer almışdır. Tanınmış sənətşünasın rəssamın çoxşaxəli yaradıcılığından bəhs edən bu mətnini sovet dönəmində onun bədii irsinə göstərilən yeganə əhatəli elmi yanaşma saymaq olar.

Digər bir kiçik həcmli nəşr ölkəmizin müstəqilliyi illərində işıq üzü görmüşdür. Bu rəssamın anadan olmasının 75 illiyi münasibətilə çap olunmuş A.Kazımzadənin “Kamil Nəcəfzadə” (2005) kitabıdır. Burada rəssamın kino yaradıcılığı ilə yanaşı rəngkarlıq işləri haqqında da qısa söz açılmış, tanınmış sənət adamlarının K.Nəcəfzadə haqqında fikirləri yer almışdır.

Rəssamın yaradıcılığından bəhs edən nəşrlər arasında kataloqlar nisbətən çoxluq təşkil edir. Bunlar rəssamın 1985-ci ildə Bakıda və Moskvada keçirilmiş “Vyetnam boyunca”, 1992-ci ildə təşkil olunmuş “Azərbaycan – ana Vətən” adlı fərdi (mətnin müəllifi N.Həbibov), 2004-cü ildə S.Bəhlulzadə ad. sərgi salonunda təşkil edilmiş (mətnin müəllifi Ü.Zeynalova) sərgilərinin kataloqlarıdır.

Sovet dönəmində respublikada nəşr olunan müxtəlif mətbuat orqanlarında rəssamın yaradıcılığına həsr edilmiş bir-neçə məqalə çap olunmuşdur. Bunlar T.Arazlının “Bakı” qəzetindəki “Bir qəlbin intizarı”(1972, 22 may), T.İsmayılovanın “Yaradıcı gənclik. Rəssam Kamil Nəcəfzadə haqqında” (1962, 6 aprel) və E.Rzaquliyevin “Günəşə bənzəyən ümid” (1974, 12 sentyabr), R.Mehdiyevin “Kommunist” qəzetindəki “Qaynar bulaq” (1974, 25 aprel) və H.Seyidbəylinin “Realist tablolar” (1964, 15 aprel) məqalələridir.

Bundan əlavə 1970-1980-ci illərdə dövrü mətbuatda daha bir neçə məqalə işıq üzü görmüşdür. R.Mehdiyevin “Kommunist” qəzetindəki “Yaradıcı ziyalılarımız” (1975, 30 iyun), M.Əliyevin “Qobustan” jurnalındakı (1975, №1) “Azərbaycan rəssamı Parisdə”, E.İbrahimin “Ədəbiyyat və incəsənət” qəzetindəki “ADR-ə həsr olunmuşdur” (1984,31 avqust), Ə.İbrahimovun “Ədəbiyyat və incəsənət” qəzetindəki “Vyetnam motivləri” (1983, 4 noyabr), N.Həbibovun “Kommunist” qəzetindəki “Vyetnam lövhələri (1983, 26 noyabr) məqalələri bu qəbildəndir.

Müstəqillik illərində də K.Nəcəfzadənin yaradıcılığı kütləvi-informasiya vasitələrinin diqqət mərkəzində olub. M.Mükərrəmoğlunun "Xalq qəzeti"ndəki "Ömrün də öz rəngləri var" (2005, 6 yanvar) və Ə.İbrahimovun "İncəsənət" qəzetindəki "Azərbaycan-ana Vətən" (1992, 25 noyabr) adlı yazılarında rəssamın yaradıcılığının müxtəlif xüsusiyyətlərinə toxunulub.

Daha çox publisistik tutumlu olan bu yazılar təbii ki, onun yaradıcılığına elmi yanaşmadan uzaq olmuşdur.

"Qalereya" (2008, fevral) jurnalında nəşr edilmiş K.Nəcəfzadə ilə müsahibə isə rəssamın həyat və yaradıcılığının az məlum olunan səhifələrinə işıq salınması baxımından maraq doğurur. Rəssam burada yığcam, lakin olduqca əsaslı şəkildə bütün yaradıcılıq yolunu təsvir edərək, özünün bir sıra rəsmləri, həmçinin Vyetnam və Fransa səfərlərinə həsr olunmuş əsərləri üzərində xüsusi olaraq dayanmışdır. Bu müsahibədə rəssam həm də kinostudiyadakı işlərindən də bəhs etmişdir.

Bundan əlavə Azərbaycan Televiziyası tərəfindən hazırlanan və Kamil Nəcəfzadənin həyat və yaradıcılığına həsr edilmiş "Rənglərdə yaşayan kino", "Ağ kətanın sehri... Kamil Nəcəfzadə" adlı verilişlərdə də onun sənətkar taleyinin bir çox cəhətlərindən söz açılmışdır. Bununla belə həmin verilişlərdə rəssamın kinoda fəaliyyəti barədə çox səthi informasiya verilmiş, filmlərə çəkilmiş eskizləri və ümumiyyətlə əsərləri barədə heç bir söz deyilməmişdir.

Göründüyü kimi, rəssamın rəngakarlıq işlərinə qismən münasibət bildirilsə də, həyatının yarım əsrə yaxın dövrünü həsr etdiyi fəaliyyət sahəsinə – kinostudiyada işlədiyi dövrə bu günə qədər də elmi münasibət bildirilməmiş, bədii irsi sistemləşdirilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqat işinin məqsədi Kamil Nəcəfzadənin yaradıcılığına həsr olunmuş elmi-monoqrafik əsərin yaradılmasıdır. Dissertasiyanın əsas məqsədlərindən biri də XX-ci əsrin ikinci yarısında milli incəsənətin kontekstində K.Nəcəfzadənin yaradıcılığının təhlili və bu yaradıcılığın formalaşmasına təsir edən amillərin müəyyənləşdirilməsidir. Bu məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

– XX əsrdə milli incəsənətimizin inkişafına həsr edilmiş ədəbiyyatın təhlili və axarında Kamil Nəcəfzadənin yaradıcılıq axtarışları baş verən Sovet incəsənətinin əsas tendensiyalarının xüsusiyyətlərinin göstərilməsi;

– rəssamın yaradıcılıq irsini tam dolğunluğu ilə təqdim edən materialın toplanılması və təhlil olunması;

– K.Nəcəfzadənin kino-teatr sahəsindəki fəaliyyətinin izlənilməsi və filmlərə çəkmiş eskizlərin təhlil edilməsi;

– rəssamın əsərlərini növ (teatr və kinoda iş, rəngkarlıq və qrafika), janr (mənzərə, portret, natürmort, süjetli əsərlər) və mövzu üzrə təsnifatını apararaq təhlil etmək;

– rəssamın əsərlərinin üslub xarakterinə təsir edən amillərin müəyyənləşdirilməsi;

– rəssamın yaradıcılığının kompleks tədqiqatını yekunlaşdıraraq bu yaradıcılığın əsas inkişaf xüsusiyyətlərinin göstərilməsi;

**Tədqiqatın obyekti və predmeti.** Bu tədqiqat işinin obyekti Azərbaycanın Xalq rəssamı Kamil Nəcəfzadənin bədii irsidir. Tədqiqatın predmeti isə rəssamın yaradıcılıq üslubunun xüsusiyyətidir. Dissertasiyada təhlil olunan əsərlər rəssamın əsərlər toplusunun tam siyahısı deyil. Bu əsərlərin bir qismi şəxsi kolleksiyalardadır, bir neçəsi müxtəlif ölkələrin sərgi salonlarının arxivlərində, filmlərə çəkilmiş əsərlərin isə əksər hissəsi qorunub saxlanılmamışdır. Məhz bu səbəbdən K.Nəcəfzadənin bir sıra əsərlərinin taleyini izləyib təhlil etmək mümkün olmadı. Lakin buna baxmayaraq burada rəssamın 120-dən artıq rəngkarlıq və qrafika əsərləri, tamaşalara və kinofilmlərə çəkilmiş eskizləri təhlil edilmişdir.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqat işinin metodoloji əsasını rəssamın əsərlərini təhlil edən sənətşünaslıq metodu təşkil edir. Dissertasiyada aşağıdakı metodlardan istifadə olunur:

- K.Nəcəfzadənin sovet təsviri sənəti kontekstində fərdliyinin açılmasına yardım edən kontekstual metod;

- K.Nəcəfzadənin tablolarını onun dövründə rəssama ideya və yaradıcılıq baxımından yaxın olan rəssamların əsərləri ilə müqayisə metodu;

- rəssamın əsərlərinin məzmun və obraz həllinin bədii xüsusiyyətlərini müəyyənləşdirməyə yardım edən kompozisiya təhlili metodu.

Dissertasiyanın əsas mənbələrini tədqiqatın ilkin mərhələsində rəssamın emalatxanasında fotofiksasiyası aparılan əsərlər təşkil edir. K.Nəcəfzadənin şəxsən özünün təqdim etdiyi məlumatlarda dissertasiyada öz əksini tapmışdır. Ədəbiyyat mənbələrindən rəssamın fərdi sərgilərinin

kataloqları və onun müxtəliv dövrlərdə iştirak etdiyi sərgilərə həsr olunmuş mətbuat icmalı araşdırılmışdır.

**Tədqiqatın sərhədləri.** Tədqiqatın tematik sərhədləri dissertasiya işinin adında müəyyən edilmiş əsas problemlə şərtlənmişdir. Qarşıya qoyulmuş vəzifələri nəzərə alaraq, bu tədqiqat işinin xronoloji çərçivəsi 1950-ci illərin sonları ilə 2010-cu illər arasında olan müddətlə müəyyənləşdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin yeniliyi dissertasiyada işıqlandırılan məsələlərin, yəni rəssamın yaradıcılığının ilk dəfə tədqiqat obyekti olması ilə müəyyən olunmuşdur.

Bu əsərdə ilk dəfə olaraq K.Nəcəfzadənin səhnəqrafiyası, bədii filmlərə çəkdiyi eskizləri və dəzgah rəngkarlığı əsərləri ətraflı təhlil edilmiş, rəssamın yaradıcılıq irsi tədqiqata əlavə olan albomda toplanmışdır.

Rəssamın əvvəllər dərc edilməmiş rəngkarlıq, qrafika və kinofilmlərə çəkilmiş rəsmləri ilk dəfə olaraq sənətşünaslıq dövriyyəsinə daxil edilmişdir.

Tədqiqat işində rəssamın yaradıcılıq axtarışlarının əsas istiqamətləri və ona xas olan ifadə üslublarının bədii-estetik yükü müəyyən olunmuşdur.

**Işin praktiki əhəmiyyəti**. Işin praktiki əhəmiyyəti onun materiallarının və nəticələrinin incəsənət tarixçilərinin elmi-tədqiqat işlərində və pedaqoji fəaliyyətində istifadə oluna bilməsindən ibarətdir. Toplanılmış material gələcəkdə Azərbaycan kino rəssamlarının yaradıcılığına və ümumiyyətlə, XX əsrin incəsənətinə həsr edilmiş tədqiqatlarda faydalı ola bilər. Bundan əlavə tədqiqatın nəticələri monoqrafiyalarda, elmi nəşrlərdə və təsviri incəsənət tarixi üzrə tərtib edilmiş mühazirə kurslarında istifadə oluna bilər.

Bu dissertasiya yalnız XX əsr incəsənət tarixi ilə məşğul olan mütəxəssislər üçün deyil, həm də Azərbaycan rəngkarlığı ilə maraqlanan geniş oxucu kütləsi üçün məlumat mənbəyi ola bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ–tətbiqi sənətlər və heraldika" şöbəsinin iclasında müzakirə edilmişdir. Tədqiqat işinin bölmələri və əsas müddəaları müəllifin elmi məcmuələrdə dərc edilmiş 9 elmi məqaləsində öz əksini tapmış və eyni zamanda bu müddəalar respublika və beynəlxalq elmi konfransların məruzələrində şərh edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat və illüstrativ albomundan (naturadan çəkilmiş foto-şəkillər) ibarətdir. Dissertasiyanın mətn hissəsi kompyuterdə yığılmış 120 səhifədən ibarətdir, illüstrasiyalar albomuna 120 foto-şəkil daxildir.

## DISSERTASIYANIN QISA MƏZMUNU

**"Kamil Nəcəfzadənin kino yaradıcılığı"** adlı I-ci fəsildə K.Nəcəfzadənin qısa yaradıcılıq tərcümeyi halı və kinematoqrafiya sahəsindəki fəaliyyəti ətraflı işıqlandırılır.

**I.1. Rəssamın yaradıcılığının formalaşması və inkişaf mərhələləri.** K.Nəcəfzadə 29 dekabr 1929-cu ildə Lənkəran şəhərində anadan olub. O, 1943-1948-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır. 1949-1955-ci illərdə isə K.Nəcəfzadə təhsilini Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda davam etdirmişdir. İnstitutun bitirdikdən sonra o, "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rəssam kimi fəaliyyətə başlamışdır. 1957-ci ildə Azərbaycan Rəssamlar İttifaqına və Azərbaycan Kinematoqrafçılar İttifaqına üzv qəbul olunmuşdur.

K.Nəcəfzadə Azərbaycan kinematoqrafiyasının qızıl fondunu təşkil edən bir çox filmlərin quruluşçu rəssamı olmuşdur. Rəssamın belə filmlərinin siyahısında "Bir məhəlləli iki oğlan", "Uzaq sahillərdə", "Mən rəqs edəcəyəm", "Ulduz", "Bir cənub şəhərində", "Səmt küləyi", "Ad günü", "Atları yəhərləyin" və bir çox digər əsərlər yer almışdır.

Kino sahəsində gərgin iş rejiminə baxmayaraq K.Nəcəfzadə teatr səhnəsində bir sıra tamaşaların quruluşçu rəssamı olmuşdur. Burada C.Cabbarlının "Oqtay Eloğlu", H.Cavidin "Knyaz" S.Vurğunun "Fərhad və Şirin" poeması üzrə səhnələşdirilmiş tamaşaların səhnə tərtibatlarını misal gətirmək olar. Teatr quruluşlarında rəssam təkcə dekorasiyaları deyil, həm də kostyum eskizlərini hazırlamışdır.

Kinofilmlərə verdiyi tərtibatlarla yanaşı rəssam rəngkarlıq və qrafika sahələrində də bir sıra dərin məzmunlu və estetik təsir gücü ilə seçilən əsərlər yaratmağa müvəffəq olmuşdur. K.Nəcəfzadə 15 fərdi yaradıcılıq sərgisinin müəllifidir. O, Amerika Birləşmiş Ştatlarında (Vaşinqton şəhərində) fərdi sərgisi açılan ilk azərbaycanlı rəssamdır.

K.Nəcəfzadə müxtəlif illərdə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru olmuş, ömrünün sonunadək pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

K.Nəcəfzadənin milli kino, teatr və rəngkarlıq sənəti sahəsindəki xidmətləri Azərbaycan dövləti tərəfindən daim yüksək qiymətləndirilmişdir. Kino və rəngkarlıq sahəsindəki nailiyyətlərinə görə o, 1976-cı ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, 1987-ci ildə isə Azərbaycan Respublikasının xalq rəssamı kimi yüksək fəxri adlara layiq görülmüşdür. Rəssam iki dəfə Dövlət mükafatına layiq görülmüş, müxtəlif orden və medallarla təltif olunmuşdur. 28 dekabr 1999-cu ildə isə Nəcəfzadə respublikamızın ali mükafatı - "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**I.2. Lirik-psixoloji dram və komediya janrlı filmlərə çəkilmiş eskizlərin bədii xüsusiyyətləri.** K.Nəcəfzadə yaradıcılığı boyu bir-birindən tamam fərqli janrda çəkilən filmlərin quruluşçu-rəssamı olmuşdur. Bunların arasında lirik-psixoloji dram, komediya və tarixi mövzulu əsərlər vardır.

K.Nəcəfzadənin dəvət olunduğu ilk ekran əsəri 1956-ci ildə çəkilmiş "Qara daşlar" filmidir. Bu filmdən sonra rəssam "Bir məhəlləli iki oğlan" filminin üzərində işləməyə başlamışdır. Burada hər bir kadrın çox düşünülmüş şəkildə qurulması əsərin uğurunu şərtləndirib. Filmin çəkilişlərinin təbiət güşələri, İçərişəhər və Bakının müxtəlif tarixi küçələri, dəniz sahili və interyerdə aparılması da bunu təsdiqləyir. Filmə çəkilmiş eskizlərə nəzər yetirdikdə görürük ki, rəssam interyer tərtibatının rəngarəng və məntiqli olmasına daha çox diqqət yetirir. Həmin illərin əhval-ruhiyyəsini rəssam səciyyəvi məişət avadanlıqlarının vasitəsilə çox dəqiqliklə əks etdirmişdir.

1959-cu ildə K.Nəcəfzadə "Əsl dost" filminə dəvət alır. Bu film üçün hazırlanmış eskizlər müxtəlif texnikalarda icra olunmuşdur. Belə təsəvvür yaranır ki, kino rəssamı fikrindəki səhnələri qrafikanın müxtəlif növlərində, pastel, tuş, akvarel və qrafit qələmin ifadə imkanlarında axtarırdı. Bu mənada "Qızı ilə evdə" adlandırılan eskiz zəngin rəngkarlıq xarakteri ilə seçilir. Əsərin çeşidli və dolğun rəng qammasına tünd göy rəng hopdurulmaqla onun təsir gücü kifayət qədər gücləndirilmişdir. Ağ rəngin parlaq şüaları (pəncərədən düşən ay işığı və masanın bir hissəsini örtən ağ süfrə), qırmızı və narıncı rənglərin isti işartıları vasitəsilə (qızın əynindəki qırmızı köynək və arxa otağa açılan pəncərədən və qapı arasından saçan ocağın işığı) əsərin göy rəngli tonunun azaldılmasına cəhd hiss olunur. Əşyalar məcmusundan ibarət olan mühitdə görünənləri detallaşdırmaqdan uzaq bir tutumda təqdim etməklə, məkanın reallığına nail olmasını rəssamın uğuru saymaq mümkündür.

“Barakda” eskizi digərləri ilə müqaisədə daha ümumiləşdirilmiş xarakter daşıyır və sulu boya texnikasında işlənilmişdir. Buna baxmayaraq tərtibat və detallar duyulan və inandırıcıdır. Mirvari çalarlı rəng qamması, açıq boz rəngdən tünd boz rənglərə tədricən keçid yüngül-şəffaf koloritli kompozisiya yaradır. Rəssam bir neçə yerdə narıncı rəngi istifadə etməklə soyuq çalarların üstünlük təşkil etdiyi koloritə müəyyən istilik gətirməyə nail olmuşdur. Narıncı rəngdən ağ süfrənin üzərinə və çarpayıların dəmir tutacaqlarına çəkilməsinə rəğmən demək olar ki, müəllifin onlardan az, ancaq məntiqlə istifadəsi ona məqsədinə yetişməyə imkan vermişdir.

Filmlərin eskizlərinə nəzər yetirdikdə biz rəssamın filmdə cərəyan edən hadisələrin bədii-obrazlı təsvirini ifadə etmək istəyini görürük. “Əsl dost” filminin final səhnələrindən birini təsvir edən eskiz buna misal ola bilər. Bu eskizdə dostlardan biri balıqçı komasında, sobanın qarşısında oturub hərəkətsiz baxışlarla alova baxır. Obraz üçün dəqiq tapılmış pozada situasiyanın dramatikliyini təsdiqləyə biləcək bədii vasitələr kifayət qədər olduğundan, həmin kadrın təsirli alınacağı da əvvəlcədən duyulan və birmənalıdır.

Rəssamın komediya janrında çəkilmiş kinolentləri sırasında “Ulduz” musiqili komediyası xüsusi yer tutur. Filmin həm kostyumları, həm panoram çəkilişləri etnoqrafik baxımından yüksək səviyyədə yerinə yetirilmişdir. Bu filmə çəkilmiş eskizlər təbiiliyinə görə ekranda gördüyümüz kadrları sanki yenidən gözümüzün qarşısında canlandırır. Eskizlər tamaşaçıda filmin süjet xəttinə müvafiq olaraq şən əhval-ruhiyyə yaradır. Məsələn, tələbələrin buraxılış gecəsi səhnəsinin eskizləri, sanki səslənən valsın sədaları altında çəkilmiş kimi duyğulandırıcı koloritdə, yüngül impressionist tərzdə işlənilib.

1960-cı illərin sonunda Azərbaycan kinosuna gənc nəslin gəlişi ilə milli kinomuzun yeni inkişaf mərhələsi başlanır. Kino aləmindəki yeni ideyalar və baxışlar gənc rejissor E.Quliyevin “Bir cənub şəhərində” filmində öz əksini tapır. Film milli koloritdə çəkilib. Bu ekran əsəri üslub və xarakterinə görə “Sən niyə susursan?” filmi ilə səsləşən üslubda çəkilmişdir. “Sən niyə susursan?” filmi Azərbaycan kinosu tarixində ən maraqlı filmlərdən biri hesab olunur. Bu ekran əsəri 1960-cı illərdə geniş yayılmış neorealizm kino cərəyanı üslubunda çəkilmişdir. Həmin dövrdə bədi filmlər sanki sənədli filmin təsiri altına düşərək ağ-qara çəkilirdi. Filmin dekorasiyaları, brakonyerlərin mağarası, onların geyimləri, balıqçı

torları və digər xırda detallar səhnənin ab-havasına müvafiq təşkil edilmişdir. Filmin işıq-kölgə təzadı dekorasiyaların ifadəliyini bir az da gücləndirirdi. Bu ekran əsərinə çəkilmiş eskizlərə baxanda hətta onların müxtəlif rəssamlar tərəfindən işlənildiyini düşünmək mümkündür. Amma əslində bu filmin rəssamının daim üslub axtarışında olmasının göstəricisidir. "Qonaq otağının" eskizində rəssamın heç bir əsərində nümayiş etdirmədiyi üslub bənzərliyi də bunu təsdiqləyir. Əsər qısa yaxılarla işlənilib. Rənglər təravətli və yüngüldür, ruhlandırıcıdır. Belə bir şəraitdə çəkilən kadrların uğurlu olacağı da əvvəlcədən duyulandır.

K.Nəcəfzadənin peşəkarlığını nümayiş etdirən məqamlardan biri də onun bir filmdə müxtəlif dövrləri göstərmək qabiliyyətidir. Söhbət yalnız əşya-atribut mihitindən getmir. "Bizi bağışlayın" filminin nümunəsində buna əmin olmaq mümkündür. Filmdə keçmiş dövrün xatirələri ilə müasir zamanın təəssüratları bir-birini əvəzləyir. Qəhrəmanın uşaqlıq illərində şəhərin köhnə küçələri ilə müasir şəhərin yeni tikililəri ilə necə müqayisə olunurdusa, interyer görüntüləri də həmin qaydada müqayisə olunmalı və dövrlərin fərqli xüsusiyyətlərini kəskin şəkildə əks etdirilməli idi. Müxtəlif dövrləri əks etdirərkən rəssam bədii ifadə üslubunu elə dəyişir ki, sanki bu eskizləri müxtəlif rəssamlar yerinə yetiriblər. K.Nəcəfzadə məkanın hansı dövrə aid olmasını təkcə əşyaların informativliyində axtarmır. Rəssam zamanın əhval - ruhiyəsini göstərmək üçün müvafiq dövrün incəsənət üslubuna əl atır. Köhnə mənzili əks etdirən birinci eskiz yüngül- impressionistlərin üslubunda işlənilib və XX əsrin əvvəllərinin Rusiya rəssamlarının rəngkarlıq əsərləri ilə assosiyasiyalar yaradır. Müasir həyat tərzinin ifadəsini nümayiş etdirdikdə isə rəssam qəhrəmanların geyim tərzini, mənzilin dizaynını göstərməklə bərabər, eskizləri 1970-ci illərin təsviri sənət əsərlərinin üslubunda - ənənə ilə müasirliyin vəhdəti tutumunda təqdim etmişdir.

"Bizim küçə" filmi üçün hazırlanmış eskizlər isə öz brutallığı, dinamik həlli, sərt siluetləri, qeyri-simmetrik kompozisiyası ilə diqqəti cəlb edirlər. Bu əsərlərə baxanda görürük ki, K.Nəcəfzadə akademik realizm məktəbini təmsil etməsinə baxmayaraq bilərəkdən onun "çərçivəli" görünən prinsiplərindən uzaqlaşmaqla, bu prinsiplərə yaradıcı münasibət sərgiləməkdədir. Burada müasirliyi və keçmişi əks etdirən dəyişgən səhnələr çox maraqlı alınmışdır. Eskizin üslubu filmin digər kadrlarını əks etdirən eskizlərlə bərabər 1920-30-cu illər Amerika rəssamlarının (Corc

Bellouz, Robert Henri, Con Sloan və s.) üslubunu xatırladır. Bəzi səhnələrə xas olan həyacanlı məqamları rəssam qara və sarı rəng çalarlarının təzadı əsasında qurmuşdur.

**I.3. Tarixi filmlərin tərtibatı - keçmişin inandırıcı bədii əksi kimi** . K.Nəcəfzadə bir neçə dəfə tarixi mövzulu filmlərə kino rəssamı kimi dəvət almışdır. Bu filmlərin siyahısında "Uzaq sahillərdə", "Səmt küləyi", "Od içində", "Qızıl uçurum", "Atları yəhərləyin" və s. kinolentlərin adını çəkmək olar. Azərbaycan tarixinin müxtəlif dövrlərinə həsr olunmuş bu bədii filmlərdə rəssamın qarşısına yeni yaradıcı məsələlər və vəzifələr qoyulmuşdur. Odur ki, rəssama hər bir tarixi dövrü əks etdirmək üçün o dövrdə baş verən hadisələri və tarixi mühiti diqqətlə öyrənmək lazım gəlmişdir. Bu da ümumi nəticənin arzulanan olması ilə sonuclanmışdır.

Rəssamın iştirak etdiyi məşhur ekran əsərlərindən biri "Uzaq sahillərdə" filmidir. Onun bu günə kimi maraqla baxılmasında filmin rəssamlarının duyulası rolu olmuşdur. Kinorəssamlar K.Nəcəfzadə və C.Əzimov o dövrün məhdud imkanlarına baxmayaraq Almaniyanın Trest şəhərinin görüntülərini əks etdirmək üçün Bakının bir sıra küçələrinə elə dekor vermişdilər ki, bu gündə filmə baxan tamaşaçılar kadrlarda təsvir olunan görüntülərin Bakı küçələrinə aid olduğuna inanmır. Müharibə dövrünün ab-havasını və mövzuya dair digər detallar da məharatlə verilmişdir.

"Uzaq sahillərdə" filmdən başlayaraq K.Nəcəfzadənin filmlərə çəkdiyi eskizləri ayrıca bir əsər kimi bədii dəyər kəsb etməyə başlayır. Məsələn, meşə səhnəsini təsvir edən eskizi götürək. Kompozisiya iki plandan ibarətdir onlar orqanik şəkildə biri-birini tamamlayır. Vərəqin bütün sahəsi səhnəni ifadə edə biləcək atributlarla doldurulmuşdur: blindaj adlanan yeraltı sığınacaq, tonqal, at, piramida şəklində yığılmış tüfənglər, araba və çadır. Səhnə ağcaqayn meşəsində baş verəcəyindən, rəssam meşəni də iştirakçı və personaj kimi səhnəyə daxil etmişdir. Rəsmin koloritində üstünlük təşkil edən ümumi yaşıl və bozumtul çalarlar bir neçə qırmızı və oxra rəngli aksentlərlə canlandırılır. Kəhər at, sarı rəngli araba və tüfənglərin qəhvəyi qundaqları buna misal ola bilər.

K.Nəcəfzadənin "Səmt küləyi" filminə çəkdiyi eskizlərə baxanda aydın görünür ki, rəssam öz vəzifəsini (hadisələrin cərəyan etdiyi məkanın mühitini əşyalar-detallar vasitəsilə təşkil etmək) anlayır və onu peşəkarcasına yerinə yetirir. Lakin bununla bərabər K.Nəcəfzadə öz

rəngkarlıq üslubuna da sadiq qalır. Yəni, bu eskizlərdə rəssam xırdaçılıqdan uzaq durur və səhnədəki bütün əşyaları, əsas hadisələrin cərəyan etdiyi məkanda fon kimi təqdim edir. Kamil Nəcəfzadə kino rəssamı üçün ayrılmış çərçivələri dağıtmağa meylli rəssamlardandır. O, sanki bu çərçivələri yarıb səhnə dramaturgiyasına can atmaq istəyir, rejissor və operatorla birlikdə bu və ya digər epizodun bədii həllini tapmaqda həmmüəllif olmağa çalışır.

"Qızıl uçurum" bədii filmində K.Nəcəfzadə təsdiq edir ki, akademik təhsilinə baxmayaraq, vəziyyət tələb etdiyi zaman təbii və üzvi surətdə XX əsrin ikinci yarısının avanqard cərəyanlarının sahəsinə daxil olmağı bacaran çevik rəssamdır.

"Atları yəhərləyin" kinofilminə çəkilmiş eskizlər də böyük marağ doğurur. Ən məşhurları həbsxana səhnələri ilə bağlı olan kompozisiyalardır. Onlardan birinə diqqət yetirsək görərik ki, ağır, kobud lövhələrdən düzəldilmiş və zəncirlər vasitəsilə divara bərkidilmiş yataq yerləri, kiçik pəncərəli dəmir qapı, suvağı qopub tökülən divarlar, yuxarıdan düşən nazik işıq zolağı və ümumiyyətlə bütün detalların brutal plastikaya malik olması Vinsent van Qoqun məşhur əsərlərini xatırladır. Həbsxana kamerasının məkanı olduqca böyük planda təsvir edilib və tamaşaçı özünü sanki kameranın içində hiss edir. Eskizdə dramatik təsir kolorit vasitəsilə qüvvətləndirilir. Eskiz ümumi tünd-yaşıl qammada həll edilib. Ümumiyyətlə, kompozisiyanın lakonikliyi (burada detallaşdırılma aparılmayıb), dərin monoxrom koloriti, məkanda bir sıra elementlərin qəsdən böyüdülmüş miqyası eskizə yüksək ifadəlik bəxş edir. Rəssamın tapdığı mühit və məkan obrazın çox təsirli qəbuluna kömək edir.

Rəssamın kino sahəsindəki fəaliyyətinin təhlili sənətkarın yaradıcılıq üslubunun əsas xüsusiyyətlərini müəyyən etməyə imkan verir. Kinoda quruluşçu rəssamın əsas vəzifəsi naturanın və əşya mühitinin təşkil etməsi olsa da, K.Nəcəfzadə onun yaradıcılığında yer almış eskizlərində qəhrəmanların psixoloji vəziyyətinə və səhnənin emosional ab-havasına böyük diqqət yetirmişdir. Bundan əlavə rəssam heç zaman öz işini detallarla məhdudlaşdırmır, daha doğrusu, detallar üzərində diqqətini cəmləməyə çalışmır.

**"Kamil Nəcəfzadənin dəzgah rəngkarlığı və qrafika əsərləri"** adlı II fəsildə rəssamın yaradıcılığı boyu yaratdığı rəngkarlıq və qrafika əsərləri təhlil edilir. Fəsil IV yarımfəsildən ibarətdir.

K.Nəcəfzadə təkcə teatr və kino sənətini öz yaradıcılığının yeganə fəaliyyət meydanı hesab etmirdi. O, ömrünün son günlərinədək rəngkarlığın müxtəlif janrlarında və fərqli texnikalarında yorulmadan çoxlu sayda dəyərli əsərlər yaratmışdır. Rəssamın ilk əsərlərində lirik ovqatın qabardılması əsas yer tutub. Hətta sonralar da, onun bir sıra əsərləri ekspressiv obraz axtarışlarını əks etdirsə də, sənətkar heç vaxt lirik-romantik patetikadan imtina etməmişdir.

K.Nəcəfzadənin yaradıcılığa başladığı dövr "sosialist realizmi" bədii prinsipinin aparıcı üslub kimi hökmranlıq etdiyi illərə təsadüf edir. Həmin vaxtlar cəmiyyətin rəssamlara yönəlmiş yeni tələbləri, "keçmişin romantikasına" qarşı qoyulan aktual ideoloji mövzuların ön plana çıxarılması yeni bədii proqramın yaranmasına səbəb olmuşdur. Bu proqramın əsas mahiyyəti və prinsipləri 1940-50-ci illərdə tamamilə müəyyənləşmişdi. İlk milli rəssamlar, mahiyyət etibarilə müəyyən qədər bu tarixi dövrün ideyasını - Avropa incəsənətinə inteqrasiya təcrübəsini təmsil edirdilər. Onlar öz yaradıcılıqlarında müxtəlif tarixi dövrlərin mədəni və estetik koordinatlarını biri-birinə calayaraq fərdi üslublarını müəyyənləşdirməyə çalışırdılar.

Təbii şəkildə realizm üslubuna bağlı olan süjetli və tematik silsilələrin sayı çoxalırdı. Rəssamların, həmçinin K.Nəcəfzadənin rəngkarlıq əsərlərində öz xalqının milli ruhuna və ənənəvi düşüncə tərzinə əsaslanan müxtəlif janrlara məxsus əsərlər yaranırdı.

K.Nəcəfzadənin rəngkarlıq əsərlərində xalqın həyat tərzini, milli ruhunu əks etdirən süjetlər əks olunurdu. Misal üçün portret janrında olan əsərlər sanki plenerdə işlənilirdi və bu da öz növbəsində ətraf mühitin təsvirinə milli xarakteri əks etdirən səciyyəvi elementlərin əlavə olunması ilə nəticələnirdi. Rəssamın əsərlərinin sərhədləri bəzən dəyişkən və müxtəlif olurdu. Onun əsərlərinin süjetləri geniş diapazona malik idi. Hərtərəfli dünyagörüşünə malik rəssam, onu düşündürən mövzuları ifadə etmək istəyi ilə rəngkarlığın müxtəlif janrlarına – mənzərə, tematik tablo, portret və natürmort janrlarına müraciət edirdi.

**II.1. Süjetli kompozisiyalar.** Rəssam tematik əsərlərində siyasi mövzulara daha çox üstünlük vermişdir. Kinostudiyada toplanmış təcrübə və rəssamın quruluşçu düşüncə tərzi, xüsusən tematik əsərlərin kompozisiyasında özünü tam biruzə verir. 1990-ci ilərdən başlayaraq onun tematik əsərlərinin sayı artır. Burada Dağlıq Qarabağ və 1990-cı ilin qanlı

hadisələrindən bəhs edən əsərlər çoxluq təşkil edir. “Qaçqınlar”, “Anaların fəryadı”, “Tarix bağışlamayacaq”, “Azərbaycanın fəryadı” kimi tablolar bu qəbildən olan əsərlərdəndir.

“Qaçqınlar” əsəri eskiz tərzində yerinə yetirilmişdir. Burada bir qrup insan pərakəndə şəkildə, gecə vaxtı, dağlarda qarın üstü ilə irəliləyirlər. Kompozisiyaya və onun işlənilmə tərzinə nəzər yetirdikdə aydın olur ki, rəssamın əsas məqsədi növbəti sənət əsərinin yaradılması deyil. Burada o, baş verən hadisələrə münasibətini bildirir və bu hadisələrin kətan üzərində tarixi sənəd kimi əks olunmasını istəyir. Ümumiyyətlə, bu növ əsərlərin əksəriyyətində bədii ifadəlik azdır. Şəhidlərin üzündəki ölüm möhürünü, qana bulaşmış üst başlarını və ana-bacıların fəryadını rəssam elə təsvir edir ki, sanki tamaşaçıda düşmənə qarşı kin və nifrət hissini oyatmaq istəyir.

“Tarix bağışlamayacaq!” əsəri lakonik bədii formada işlənilmişdir. M.Qorbaçovun simasında çəkilmiş çoxsaylı insan kəllələri, sümük və kəllələrdən təşkil olunmuş ölüm ilgəyi, sürrealist baxışa bələnmiş realizm üslubunun bədii vasitələrini xatırladır. Qəlbindən keçən hisslərini tamaşaçıya çatdırmaq üçün rəssam realizmin sərtliyini olduğu kimi tamaşaçıya çatdırmaq gücündən burada ustalıqla istifadə etmişdir.

Rəssamın kompozisiyalı obrazlar qalereyasında xüsusilə Qarabağ müharibəsi mövzusuna həsr olunmuş iki portret diqqəti cəlb edir. Bunlar “Salam, ana” və “Nişanlı qız” əsərləridir. Bu əsərlərdə rəssam döyüş səhnələrini çəkmir. O, bu obrazların timsalında arxa cəbhənin əhval - ruhiyyəsini göstərmək istəyir.

Siyasi və tarixi motivlərdən əlavə K.Nəcəfzadənin əsərlərində digər mövzular da yer almışdır. Bu əsərlər bilavasitə rəssam düşüncələri və yaradıcı fantaziyası ilə bağlı olan kompozisiyalardır. Yaradıcı müstəqillik onun yaradıcılığında yalnız mövzuda deyil, həm də əsərlərin yerinə yetirildiyi rəngkarlıq üslubunda da öz əksini tapmışdır. Rəssamın “Ağ atlar”, “Atlar”, “Öpüş”, “Faytonçu” və s. əsərləri bu qəbildən olan kompozisiyalardandır.

Məlumdur ki, boz rəng ən mürəkkəb rənglərdən biri hesab olunur. Bu rəng ifadəlik imkanları baxımından kifayət qədər monoton rəngdir. Rəssamın boz rəngdən məharətlə istifadə etməsi onun kolorist bacarığını nümayiş etdirir. O, bəzi dəzgah əsərlərinin rəng qammasını məhz boz rəng və onun çalarları əsasında qurur. Deyilənlərə nümunə kimi “Öpüş” adlı əsəri göstərə bilərik. Əsər zərif kolorit həlli ilə seçilir. İşin rəng qammasının

boz tonlar əsasında qurulmasına baxmayaraq qarşımızda ifadəli və cəlbedici rəngkarlıq nümunəsini görürük. Kompozisiya lakonik həll olunub: iki nəfər - kişi və qadın fiquru ayaq üstə dayanmış vəziyyətdə təmasdadırlar. Onların fiqurları bütünlükdə stilizə olunmuş tərzdə təsvir olunub. Boz rəngdən başqa bütün digər rənglər görünməkdən daha çox hiss olunmaqdadırlar. Xüsusilə qadının köynəyinin çəhrayı və ətəyinin tünd göy rəngiləri mümkün qədər neytrallaşdırılıb. Kətanda dominantlığı cürbəcür rənglərin əhatəsində bərq vuran boz çalarlar təşkil edir.

Tədqiqat nəticəsində aydın olur ki, K.Nəcəfzadənin bir sıra əsələrini tam şəkildə bir üsluba və ya janra aid etmək çətin olur. Rəssamın elə əsərləri var ki, onları mənzərələrlə bərabər süjetli kompozisiyalar sırasına da daxil edilə bilər. Bunlar "İçərişəhər", "Faytonçu", "Köhnə şəhərdə" adlı əsərlərdir. Bu tablolara baxanda hiss olunur ki, kinostudiyada fəaliyyət göstərdiyi böyük müddət rəssamın yaradıcılığında böyük iz qoymuşdur.

**II.2. Rəssamın mənzərə əsərləri.** Rəngkarlıq və qrafika konpozisiyalarının janr və tematika müxtəlifliyi içərisində rəssam üstünlüyü mənzərəyə verir. Kino çəkilişləri ilə əlaqədar Azərbaycanı gəzib dolaşmış rəssam kinofilmlərin çəkilişi üçün müvafiq təbiət guşələri axtarışı onun mənzərə janrına marağını gücləndirir. Fimin çəkilişləri ərəfəsində çəkdiyi eskizləri toplayır və asudə vaxtlarında onları tamamlanmış mənzərə-kompozisiyalara çevirirdi. Bir çox hallarda K.Nəcəfzadə təbiəti daha çox kino rəssamı gözü ilə, kameranın obyektivinə düşən görüntü kimi təsvir edirdi. Elə onun əsərlərindəki gözlənilməz rakurslar da buradan irəli gəlmişdir.

K.Nəcəfzadənin mənzərələri arasında Xəzər dənizi mövzusu əhəmiyyətli yerlərdən birini tutur. Doğan günəşin şəfəqlərini, yaxud ay işığını əks etdirən suyun səthi, dəniz üzərində süzən qağayılar, ləpələrin yırğaladığı qayıqlar – bunlar hamısı, şübhəsiz ki, rəssam təxəyyülünə zəngin qida verirdi. "Ay işığı", "Aylı gecədə qayıqlar", "Boz gün", "Köhnə gəmilər" və digərləri onun vurğuladığımız məziyyətləri özündə hifz edən mənzərələrdəndir.

"Aylı gecədə qayıqlar" adlı əsər mavi çalarlarda icra edilmiş üfüqi kompozisiya şəklindədir. Burada təsvir olunmuş yelkənli qayıqlar ay işığı və xəfif dalğalanan gümüşü sularla birgə elə bir romantik əhval–ruhiyyə yaradır ki, reallıqla irreallıq arasındakı fərq bilinmir. Bu impressionist sayağı, yüngül koloritli bir əsərdir. Ay işığı motivi özünün başqa bir

ifadəsini “Ay işığı” tablosunda tapmışdır. Burada da lirik duyğuların ifadəsi önə çəkilmişdir.

“Boz gün” əsəri zərif - mirvari koloriti ilə fərqlənir. Kompozisiyaya diqqət yetirdikdə onun üfüqi istiqamətdə üç bərabər hissəyə bölündüyünü görürük. Bu əsərdə kompozisiyanın iki-üç ton üzərində qurulmasına baxmayaraq, əsər maraqlı kolorit gözəlliyi və bütövlüyü ilə fərqlənir. Dəniz və səma birgə ünsür kimi çıxış edir və onların boz mirvari rəngi güclə sezilən çəhrayı, sarı və mavi çalarlarla canlanır. “Köhnə gəmilər” əsəri də onunla səsləşən qammada həll olunmuşdur.

Rəssamın eyni mövzulu əsərlərini təhlil etdikdə görürük ki, onları heç biri digərinə bənzəmir. Söhbət təkcə kompozisiyanı təşkil edən elementlərdən getmir. O, əsərləri fərqli koloritdə həll edir və bu da onun mənzərələrinin ovqat daşıyıcılığının fərqli olmasını şərtləndirir.

K.Nəcəfzadənin “marinist”liyinin kökündə onun doğma yurdun təbiətində rastlaşdığı və böyük zövq aldığı su səthlərinin refleks və əksetmə qabiliyyətini gözlənilməz və zəngin çalarlarda təzahür etdirməsi durur, desək, yanılmarıq. Bu xüsusiyyət rəssam üçün müxtəlif rəng çalarlarından istifadə etməklə istənilən koloritdə əsərlər çəkməyə imkan yaradır. Onu cəlb edən əlamətlərdən biri də su səthinin sahil xəttini əks etdirməsi effekti idi. Dəniz mənzərələri ilə yanaşı rəssamın ən sevimli mövzusu meşə və ya dağlarla əhatə olunmuş göl motividir. Bu əsərlərdə sakitlik, dinclik, harmoniya və təravət gətirən bir qayda var. Rəssamın əsərlərində bir çalara tabe olan vahid tonal qammanın rəng həlli, obyektlərin su səthində əks olunması və kompozisiyaların təbii şəkildə qurulması bu qaydanın əsasını təşkil edir.

Rəssamın mənzərə əsərlərinin sırasında dağların, qarlı dağ zirvələrinin, dağ yamaclarının təsvirlərinə də rast gəlinir. Üfüqə uzanan sıra dağlar, qoynunda mal qara otlayan çay sularının suvardığı yamyaşıl dərələr, sıx meşəli dağlar və s. mənzərələr – rəssamın yaratdığı dağ mənzərələrinin əsas motivləri hesab olunur. Dağ mənzərələrini çəkərkən rəssam adət etdiyimiz standart rakursları deyil, fərqli rakurslar seçirdi. Bu da onun kino ilə bağlılığından irəl gəlirdi.

Rəssamın dəyərli əsərlərindən biri də “Boz dağlar” əsəridir. Bu əsər özünün maraqlı kompozisiya və kolorit həlli ilə seçilir. Qarşımızda üzərindən çayın qıvrılaraq axıb keçdiyi dağ vadisinin panoramı dayanır. Uzaqlarda dağətəyi kəndlərin tək-tək evləri, ara- sıra ucalan ağacları, çay

boyunca otlayan inəklər və atlar görünür. Burada ənənəvi kompozisiya quruluşu və kolorit həlli tamamilə pozulmuş kimi görünür. Rənglər parlaq və dərin tünd çalarların kəskin təzadları üzərində qurulur. Əsərə diqqət yetirdikdə bir sıra real olmayan məqamların şahidi oluruq. Vadinin üzərində dekorativ ləkələr şəklində otlayan ağ və qırmızı inəklər çayın çalarları ilə birlikdə kompozisiyanı rəmzilik müstəvisinə keçirir. Kompozisiyanın ifadəliyini təşkil edən amillərdən biri də əsərin dərinliyində görünən qonur dağların göylərə ucalan ağappaq qarla örtülü dağ silsiləsi ilə kəskin şəkildə təzad təşkil etməsidir. “Boz dağlar” əsəri bir daha göstərir ki, realizm rəngkarlığı ənənələrinin davamçısı olan K.Nəcəfzadə, bu ənənələrin çərçivələrindən çıxmamaq şərti ilə, düşündüyü effekti əldə etmək üçün müəyyən yaradıcı eksperimentləri də uğurla həyata keçirə bilmişdir.

K.Nəcəfzadənin “Yağışdan sonra” rəngkarlıq əsərinin dekorativ ifadəliyi məhz rəng uyğunluqları üzərində qurulmuşdur. Mənzərə təsviri xarakteri daşımasından çox, rəng və kolorit oyunlarına və improvizələrinə bənzəyir.

Azərbaycanın mədəniyyət abidələri hesab olunan məşhur dağ zirvələrinin təsvirləri sırasında ən məşhurları “İlandağ” və “Kəpəz” əsərləridir. İlandağının təsvirində K.Nəcəfzadə kifayət qədər fərqli rakurs seçmişdir. Əsərdə dağ elə bil ki, profildən təsvir olunub və seyirci itiuclu hündür bir dağ kompozisiyasının şahidinə dönüb. Rəssam su mövzusunu bu süjetlərində də axtarıb tapa bilmişdir. K.Nəcəfzadəni cəlb edən əlamətlər dağın qarşısındakı düzənliyin səfalı mənzərəsi və dağın bu düzənlikdə gölə düşən əksi ilə ifadə olunmuşdur.

İçərişəhərə həsr edilmiş bir sıra tabloları nəzərə almasaq deyə bilərik ki, rəssam mənzərə əsərlərində daha çox təbiət güşələrinə üstünlük vermişdir. K.Nəcəfzadənin mənzərələri, ümumilikdə, bir neçə qrupa ayrılırlar: dəniz mənzərələri, qapalı meşə əhatəsində yerləşən göllər və nohurlar, dağlar, dağ yamacları, nəhayət Abşeron motivləri. Kinofilmlər üçün çəkilmiş mənzərə eskizləri də rəssamın mənzərə əsərlərinin siyahısına daxil oluna bilər.

**II.3. Portret və natürmort əsərləri.** K.Nəcəfzadənin portret rəsmlərinin sayının az olmasına baxmayaraq, onlar bədii tutum müxtəlifliyi ilə fərqlənirlər. Bura rekonstruksiya-portretləri, tipaj portretlər, nəhayət, ən önəmli qrupu təşkil edən rəssamın müasirlərinin portretləri daxildir.

XX əsrin ikinci yarısında rekonstruktiv portretlərin yaranmasına təkan verən amillərdən biri də müəyyən tarixi hadisələrin və ya şəxsiyyətlərin obrazlarının bərpası üçün təşkil olunan müsabiqələr olmuşdur. Bu müsabiqələr böyük əhəmiyyətə malik idi. Müsabiqələrin nəticəsində Azərbaycanın böyük şair, elm və mədəniyyət nümayəndələrinin rəsmi status almış obrazlarını əldə etmiş olurduq.

Rəssam mənzərə janrında olduğu kimi portret janrındada hamıya məlum olan obrazlara müraciət edir və nəticədə orijinal variantlar təklif edir. Məsələn, M.Füzulinin portretində şairin məkanına və zamanına işarə edərək, "tarixi" mənzərə fonunda verilmiş əzəmətli fiquru bir abidə kimi öz dövrünün və mədəniyyətinin rəmzini təcəssüm etdirir. M.Füzulinin geyimində və fonda dini memarlıq obyektlərində üstünlük təşkil edən ağ rəng şairə məxsus olan mənəvi paklığa işarə kimi qəbul olunur. K.Nəcəfzadənin əsərində zahiri atributlar təkrarlanmış olsa da şairin xarakteri digərlərindən fərqlidir. K.Nəcəfzadənin əsərində "dərd şairi", əzəmətli duruşu və sərt baxışları ilə, eşq poeması ustasından daha çox, günahkarlara qarşı qəzəblənib mübarizəyə qalxan ilahiyyatçı alimə bənzəyir. M.F.Axundzadənin də portreti tamamilə fərqli tərzdə yerinə yetirilmişdir. Digərlərindən fərqli olaraq yazıçı və filosof hərbi geyimsiz, yaradıcılığı ilə təkbaşına qaldığı zaman təsvir edilmişdir.

Rəssamın müasirlərinin portretlərindən biri də rəqqas M.Esembayevin portretidir. Rəssamın digər portretləri ilə müqaisədə burada tamam fərqli yanaşma nümayiş olunur. Rəqqas rəqs edərkən təsvir olunmuşdur. Bu da portretin dinamizmə bələnməsini şərtləndirmişdir.

Portret əsərlərinə daha çox rəssamın xarici ölkələrə səfərləri zamanı işlədiyi əsərlər arasında rast gəlmək mümkündür. Deyilənlərə, nümünə kimi rəssamın vyetnamlı qadınların, fəhlə və uşaqların portretlərindən ibarət böyük rəsm qalereyasını misal gətirmək olar. Rəssamın Fransa səfərindən sonra yaratdığı iki portret xüsusi maraq kəsb edir. Bunlar rəssamın məşhur "Kor çalğıçı" və "Kabaredə" əsərləridir. Psixoloji tutumlu bu əsərlərdə iki fərqli insanın portreti təsvir edilib.

"Kor çalğıçı" əsərində iri planda, əlində gitara tutmuş bir insan fiquru görüntüyə alınmışdır. Çalğıçının arxasında izdihamlı küçə, binanın qraffiti təsvirləri ilə dolu divarı, küçəni keçən polislər təsvir olunmuşdur. Bu fonda kor çalğıçının deformasiyaya uğramış siması dramatik təsir bağışlayır. Onun obrazı D.Velaskesin məşhur portretlərindəki alçaq boylu insanlarla

aşkar assosiasiyalar yaradır. Tənha ömür sürən, zahirən yaraşıqlı, amma dünyanın nuruna həsrət qalmış musiqiçinin sarsıntısını rəssam boyaların gücü və düzgün seçilməsi ilə olduqca inandırıcı işləyib. “Kabaredə” əsərində də fəlsəfi kontekst aydın şəkildə ifadə olunub. Bu əsər, fransız impresionisti E.Manenin “Foli-Borjerdəki bar” kimi rəngkarlıq incisinə daha yaxındır.

K.Nəcəfzadə öz yaradıcılığında bir neçə dəfə natürmort janrına da müraciət etmişdir. Onun əsərləri sırasında natürmortların sayı çox olmasa da onların hər biri bədii cəhətdən maraqlı və baxımlıdır. Rəssamın bizi əhatə edən maddi aləmə münasibətində həmin əşyaları “soyuq və cansız” anlamından çıxarmaq istəyi duyulur. Rəssamın natürmortlarından ən məşhurları “Meyvə dolu vaz” və “Güllər” əsərləridir.

**II.4. Xarici ölkələrlə bağlı silsilələr.** Xarici ölkələrin təsviri K.Nəcəfzadənin yaradıcılığında əhəmiyyətli yer tutur. 1958-ci ildən başlayaraq, rəssam dəfələrlə xarici ölkələrə səfərlər etmişdir. Bu səfərlər zamanı və ya səfərdən sonra, rəssam, aldığı təəssüratlara əsasən qrafika və rəngkarlıq əsərləri yaratmışdır.

K.Nəcəfzadənin Vyetnam səfəri xüsusilə yaddaqalan olmuşdur. Bu səfər müddətində o, zəngin material toplayıb. Bakıya qayıtdıqdan sonra rəssam qırx beş kətan üzərində müxtəlif mövzulu əsərlər ərsəyə gətirib. Bu əsərlər arasında şəhər və kənd mənzərələrinə, müxtəlif insanların portret-lərinə, küçə eskizlərinə və cızmaqaralara rast gəlmək mümkündür. Əsərlərin arasında süjetli kompozisiyaların da sayı az deyil. Onların mövzuları əsasən Vyetnamda geniş yayılmış düyü əkininə və balıqçılığa həsr edilib. “Şumda”, “Düyü qurudulması”, “Vyetnam balıqçıları”, “Balıqçı qadın”, “Alaqaranlıq”, “Yağış”, “Sarı paltarlı qız” və digər əsərlər “Vyetnam silsiləsi”nin dəyərli əsərləri kimi qiymətləndirilə bilər.

“Şumda” əsəri rəssamın maraqlı əsərlərindən biridir. Bu əsər mərkəzli kompozisiyadan ibarətdir. Üç cüt camış müxtəlif istiqamətlərdə torpağı şumlayaraq hərəkət edirlər. Lakin heyvanlar tablonun sahəsində elə qaydada yerləşdirilib ki, tamaşaçıda camışların dairə boyu hərəkət etməsi təəssüratı yaranır. Tablonun mərkəzində, ön planda yerləşdirilmiş bir cüt öküzün hərəkət plastikası gözəl təsvir edilmişdir. İşin koloriti əsasən soyuq rəng çalarlarından istifadə etməklə həll edilmişdir. Əkinçilərin əyinlərin-dəki paltarların sarı rəngi və qabaq planda təsvir olunan öküzlərin isti rəngləri soyuq koloritli kompozisiyaya canlılıq gətirir. Ümumiyyətlə,

K.Nəcəfzadə Vyetnam səfərinə aid əsərlərin əksəriyyətində qara ilə sarı rənglərin təzadından tez-tez istifadə etmişdir.

Vyetnam səfəri zamanı çəkilmiş əsərləri nəzərdən keçirdikdə diqqətimizi çəkən məqam budur ki, rəssam adi mövzulara həsr olunan səhnələri məzmun baxımından zənginləşdirməyə çalışmışdır. Nümunə kimi "Alaqaranlıq" əsərini misal gətirmək olar. Burada üç kişinin topuğuna qədər suyun içərisində dayanaraq, düyü əkməsi təsvir olunmuşdur. Kompozisiya düzənlik panoramından ibarətdir. Kompozisiyanın mərkəzində ölçülərinə görə bir qədər qeyri-adi görünən üç fiqur yerləşir. Buludlu səma, fiqurların suda əksi, kölgələr, üfüqdə kiçik təpələr mənzərənin bir qədər mistik xarakter daşımasına gətirib çıxardır. Konusşəkilli papaqlar qoymuş üç əkinçi planetimizdə dolaşan üç yadplanetlini xatırladır. Adi mövzuya həsr edilən kompozisiyada rəssam mistik atmosfer yarada bilmişdir. Təsvirin ağ-qara rəngdə işlənilməsi rəssamın ideyasına uyğundur. Eyni yanaşma tərzini yalnız Vyetnam silsiləsində deyil, həm də rəssamın bir sıra kinolara çəkdiyi eskizlərdə də müşahidə etmək mümkündür.

Rəssam səfərlərdə özünün müşahidəçilik qabiliyyətindən istifadə edərək xeyli sayda küçə səhnələri təsvir etmişdir. Bu əsərlərdə rəssam palitranın bütün rəng qammalarından istifadə olunmasına üstünlük verirdi. Nümunə kimi, "Yağış" əsərini qeyd edə bilərik. Əsərin mövzusu "Vyetnam silsiləsi"ndən olan digər əsərlərin mövzusundan fərqlənir. Burada fərqli qadın obrazı ilə rastlaşırıq. Qarşımızda, zəhmətkeş, çiyinlərinə ağır yük götürmüş və ya gərgin iş şəraitində təsvir olunan vyetnamlı qadın əvəzinə zərif, qayğı və məhəbbətə ehtiyacı olan cavan qız obrazı dayanıb. Yağışlı hava və qızın əlindəki qızıl gül tamaşaçıda romantik duyğular yaradır.

Xarici səfərlərə aid əsərlərin əksər hissəsini K.Nəcəfzadə vətənə qayıtdıqdan sonra tamamlamışdır. Sonradan yaradılan rəngkarlıq əsərləri səfər zamanı çəkilmiş cızmaqara və etüdlərin əsasında yaradılmışdır. Rəssamın məhz qrafikada təqdim etdiyi bəzi obrazların psixoloji vəziyyəti insanı heyran edir. Nümunə kimi "Kişi portreti" rəsminə nəzər yetirək. Rəngli karandaş və flomasterlə işlənilməsinə baxmayaraq kişinin sifət cizgiləri və ümumiyyətlə vyetnamlı xarakteri gözəl tərzdə ifadə olunmuşdur. Burada zərrə qədər də portret çəkilməsi üçün süni pozada durma halı hiss olunmur. Ekspromt olaraq yerinə yetirilən bu əsər Nəcəfzadənin bir daha ustalığı danılmaz olan rəssam olduğunu təsdiq edir.

Vyetnamdan əlavə rəssam bir çox ölkələrə səfər etmişdir. Fransa, İngiltərə, ABŞ, Kanada və digər ölkələrə səfərlər zamanı yaratdığı əsərlərin əksəriyyəti şəhər mənzərələri və küçə görüntülərini əks etdirən lövhələrdir.

Hər bir ölkədə dünya mədəniyyətinin irsi sayılan mədəniyyət və tarixi abidələr mövcuddur. Maraqlı məqam budur ki, həmin abidələrin təsvirində rəssam onların yayılmış məşhur-stereotip təqdimatından qaçaraq fərdi yanaşma nümayiş etdirməyə cəhd edir. Bu da, öz növbəsində, tanınmış abidənin təsvirinə xüsusi ahəng gətirir və qəbul olunmuş obrazın standart təkrarı istisna olunur. Deyilənlərə nümunə olaraq rəssamın Venesiyada San–Marko, Köln şəhərində Qotika, İstanbulda Aya–Sofiya məbədləri, Qüdsdə Fəryad divarı və s. əsərlərinin adlarını çəkə bilərik. Bu abidələrin hər biri K.Nəcəfzadənin subyektiv baxışının prizmasından süzülüb tamaşaçıya təqdim olunur.

Deyilənlərin təsdiqi üçün Müqəddəs San-Marko kilsəsinin təsvirinə nəzər salaq. Məbədin təsviri fotolarda və digər rəssamların əsərlərində çəkilmiş təsvirlərə bənzəmir. Abidənin ən uğurlu rakursu qarşısındakı meydandan sayılır. Lakin rəssam abidəni künc tərəfdən təsvir etməyə üstünlük verir. Kilsə özü arxa planda, siluet formasında dumanlı görüntü kimi təsvir edilir. Abidə yalnız fondur. Kompozisiyanın əsas hissəsini günəş şüalarının işıqlandırdığı və insanlarla dolu olan küçənin təsviri tutur. Burada rəssamı memarlıq motivindən daha çox turistlərin sevimli ziyarət yeri olan Venesiya küçələri, buraya xas olan, şən əhval-ruhiyyəyə bürünmüş mühit cəlb etmişdir. Binanın baxış nöqtəsinə düşən insanlar və işıq dirəkləri parlaq rəng yaxıları ilə verilmişdir.

İranın Məşhəd şəhərində yerləşən İmam Rza ziyarətgahını və Tehrandakı məscidini təsvir edən əsərlər isə tamamilə fərqli tərzdə yerinə yetirilmişdir, yəni həcmlər bu əsərdə daha dəqiq çəkilmişdir.

K.Nəcəfzadə xarici səfərlərdə çəkdiyi əsər və eskizlərdə üslub və texnika baxımından müxtəlif yanaşmalar nümayiş etdirir. Rəssamın xarici ölkə səfərlərinə dair eskizlərində aşkar edilən xüsusiyyət budur ki, müxtəlif mədəniyyətlərə mənsub olan memarlıq və tarixi abidələri rəssam müxtəlif ifadə tərzində təqdim edir. Misal üçün, Kamil Nəcəfzadənin təsvir etdiyi Venesiya mənzərələri İtalyan rəssamı Kanalettonun rəngkarlıq üslubunu, Kölndəki qotik kilsənin təsviri alman ekspressionistlərinin yaradıcılığını, Fransanın müxtəlif guşələrinin təsviri isə etüd xarakteri ilə impressionist-

lərin əsərlərini, Nyu-Yorkun küçə görüntülərini əks etdirən əsərlər isə müasir Amerika rəngkarlığının üslubunu xatırladır.

**Nəticədə** rəssamın çoxşaxəli yaradıcılığı yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir:

1. Kinofilmlərə həsr olunmuş eskizlərdə müəllifin əşya mühitinin ən incə detallarının xırdaçılığına yol verməməsinin müşahidə olunması;
2. Səhnənin əşya-detal mühitinin filmin əsas hadisələrinin baş verdiyi yerin ovqatyaradıcı-təsiredici fonu kimi təqdimatının önə çəkilməsi;
3. K.Nəcəfzadənin bir filmdə müxtəlif dövrləri özünəməxsus şəkildə ifadə etmə tərzini zaman və məkanın inandırıcılığına yönəltməsi;
4. Zamanın əhval - ruhiyyəsini ifadə etmək üçün müfaviq dövrün dəbdə olan incəsənət üslubunun ifadə vasitəsi kimi tətbiqi;
5. Realizm məktəbini təmsilçisi olan rəssamın yaradıcılıq axtarışlarında vəziyyətdən asılı olaraq dövrün avanqard cərəyanlarından istifadəsi;
6. Rəssamın bədii ifadə vasitələrində ənənə və müasirlik probleminin həllindən yaranan bədii şərhə üstünlük verməsi;
7. Rəssamın mənzərə əsərlərində kinematoqrafik baxış üsullarından-rakurslardan istifadəsi;
8. Portret janrlı əsərlərində 1960-80-ci illərin rəngkarlığının ümumi axarına üzvi surətdə qoşulmanın və ona xas olan xüsusiyyətlərin təzahürü;
9. Natürmortlarında əşyaları "soyuq və cansız" təqdim etmək ənənəsinə özünəməxsus münasibətin mövcudluğu;
10. Süjetli tablolarında mövzunun təsirliliyinin əldə olunmasında obrazlı təqdimatdan istifadənin qabarıqlığı;

## Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Творчество Камиля Наджафзаде в мире кино // Мир культуры, Научно-теоретический сборник, Азербайджанский Государственный Университет Культуры и Искусства, XVI выпуск, Баку, 2008, с. 309 - 313.
2. Пейзаж в творчестве Кямиля Наджафзаде // Международный музыкальный культурологический журнал «Harmony», № 8, Баку, 2008. http://harmony.musigi-dunya.az.

3. Творчество народного художника Азербайджана Кямиля Наджафзаде // Mədəniyyət: problemlər və perspektivlər, aspirant və gənc tədqiqatçıların III respublika elmi konfransı, Bakı, 2009, səh. 57 - 58.
4. Кинотворчество Кямиля Наджафзаде в 1960 - 70-е годы // Mədəniyyət dünyası", Elmi-nəzəri məcmuə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XVII buraxılış, Bakı, 2009, səh. 233 - 236.
5. Azərbaycanın Xalq rəssamı Kamil Nəcəfzadənin teatrda və kinoda işi // "Mədəniyyət dünyası", Elmi-nəzəri məcmuə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XX buraxılış, Bakı, 2010, səh. 103 -108.
6. Azərbaycanın Xalq rəssamı Kamil Nəcəfzadənin rənkarlığı və qrafikası // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri, № 11, Bakı, 2011, səh. 168 - 173.
7. Многообразие граней творчества Камиля Наджафзаде // Гилея, Научный вестник, Выпуск 59 (№ 4), Киев, 2012, с. 618 - 621.
8. Зарубежная тематика в творчестве Камиля Наджафзаде // Culture, civilization, society: paradigms of research and trends in interaction, materials of international scientific conference, Prague, 2015, с. 84-89.

**ДЖЕЙХУН ЯШАР оглы САМЕДОВ**

**Творчество народного художника Азербайджана Камиля Наджафзаде**

## РЕЗЮМЕ

Диссертация посвящена исследованию творчества Камиля Наджафзаде, его деятельности в сфере кино и творчеству художника в области станковой живописи и графики. В отдельности были рассмотрены каждый жанр живописи, в которых работал художник.

Диссертация состоит из введения, двух глав, семи подглав, заключения и библиографии.

Во введении обосновывается актуальность темы, определяются степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**I глава – «Кинотворчество Камиля Наджафзаде»** рассматривает творчество К.Наджафзаде как художника-постановщика в кино и особенности творческой манеры мастера при проработке каждого эскиза с натуры и предметной среды.

**II глава – «Станковая живопись и графические произведения Камиля Наджафзаде»** проводит анализ произведений художника по жанрам (пейзажи, портреты и натюрморты, тематические композиции, живописные и графические циклы, созданным в результате зарубежных поездок) и технике исполнения.

В **Заключении** подводятся основные итоги исследования.

**JEYHUN YASHAR SAMADOV**

# Creativity of the People's Artist of Azerbaijan Kamil Najafzadeh

## SUMMARY

Dissertation is devoted to the study of creativity of Kamil Najafzadeh, its activities in the field of stage and screen and to his paintings and graphics. Every genre of painting in which the artist worked was considered separately.

The thesis consists of an introduction, two chapters, seven subchapters, conclusion and bibliography.

Urgency of the topic, level of the investigation of the problem, main purposes and objectives were defined in the introduction, scientific novelty, the main sources of the investigation, chronological framework and practical significance of the work were described as well.

**Chapter I - " Kamil Najafzadeh's cinema works "** is dedicated to study of K.Nadzhafzade activity as the art director in screen. Creative manner of the master in the elaboration of each sketch from nature and objective environment studied in detailes.

**Chapter II - "Easel paintings and drawings works by Kamil Najafzadeh**" analyzes paintings of master by genres (landscapes, portraits and still lifes, thematic compositions, paintings and graphic cycles, created as a result of overseas travels) and their technique.

The **Conclusion** summarizes the main results of the investigation.